**Azərbaycan Respublikasının**
**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyası**

# Biznes mühitinin müxtəlif sahələrinin tənzimlənməsi çərçivələri və elektron xidmətlər barədə İcmal

**Qeyd:** İcmal biznes mühitinin müxtəlif sahələrinə dair qanunvericilik normaları və elektron dövlət xidmətləri barədə zəruri məlumatların xülasəsini təqdim edir. İcmalın müvafiq bölmələri Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın aidiyyəti dövlət qurumlarının rəhbərlik etdiyi işçi qrupları tərəfindən hazırlanmışdır. Məqsəd biznes nümayəndələri və digər maraqlı tərəflərin kommunal xidmətlərə qoşulma (elektrik, internet və su), beynəlxalq ticarət, mübahisələrin həlli, əmtəə bazarı və rəqabət, tikinti, və digər sahələr üzrə qanunvericilik və inzibatçılıqla bağlı maraqlı tərəflərin məlumatlılıq səviyyəsinin artırılmasıdır.

**https://azranking.az/**

# Elektrik təchizatı şəbəkəsinə qoşulma

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na əsasən, elektrik təchizatı şəbəkəsinə (ETŞ) qoşulma üzrə müraciət "Azərişıq" ASC tərəfindən yaradılmış informasiya sistemi, habelə birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir (https://e-qanun.az/framework/55565). Bunun üçün vətəndaşlar https://e-gov.az/ portalı və ya https://e-service.azerishiq.az/ saytı üzərindən müraciət edə bilərlər.

### ETŞ-yə qoşulma müddəti

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixinli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na əsasən  məişət abonentlərinin və tələb olunan gücü 200 kVt-a qədər olan (200 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) mövcud və ya inşa ediləcək tikinti obyektlərinin ETŞ-yə qoşulması sifarişçinin müraciət etdiyi tarixdən etibarən 20 (iyirmi) gündən gec olmayaraq təmin edilir (https://e-qanun.az/framework/55565).

### ETŞ-yə qoşulma tarifləri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixinli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"nın (https://e-qanun.az/framework/55565) 1.1.1-ci yarımbəndində nəzərdə tutulmuş tikinti obyektləri üçün layihələndirilmə, tikinti-quraşdırma işlərinə və mövcud 0,4 kV-luq şəbəkəyə fiziki qoşulmaya görə (istifadə olunan mal-materiallara çəkilmiş xərclər də daxil olmaqla), Qaydanın 1.1.2–1.1.4-cü yarımbəndlərində nəzərdə tutulmuş tikinti obyektləri üçün isə sifarişçi tərəfindən texniki şərtlərə uyğun olaraq layihələndirilmə və tikinti-quraşdırma işləri yerinə yetirildikdən sonra elektrik şəbəkəsinə fiziki qoşulmaya görə ödənişlərin məbləği Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödəniş məbləğlərinin tənzimlənməsi barədə" 2024-cü il 3 iyun tarixli 4 nömrəli Qərarı (https://e-qanun.az/framework/57110) ilə müəyyən edilmişdir.

### Elektrik enerjisinin ölkədaxili tarifləri

"Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 16 oktyabr 2021-ci il tarixli 14 nömrəli Qərarına əsasən, ölkədə qeyri-əhali  istehlakçı qrupu (bu Qərarın 8-ci bəndində göstərilən istehlakçılar istisna olmaqla), o cümlədən ticarət və xidmət üzrə elektrik enerjisinin pərakəndə satış tarifi bir kilovat-saata görə 11 qəpik, digərləri üzrə isə 10 qəpik müəyyən edilmişdir.

Əhali istehlakçı qrupu üzrə elektrik enerjisinin pərakəndə satış tarifi aylıq istehlak həcminin 200 kVts-a qədər (200 kVts daxil) olan hissəsi üçün bir kilovat-saata görə 8 qəpik, aylıq istehlak həcminin 200 kVts-dan 300 kVts-a qədər (300 kVts daxil) olan hissəsi üçün bir kilovat-saata görə 9 qəpik, aylıq istehlak həcminin 300 kVts-dan çox olan hissəsi üçün bir kilovat-saata görə 13 qəpik müəyyən edilmişdir.

https://tariff.gov.az/ckfinder/userfiles/files/Q%C9%99rarlar%20file%202024-davam%C4%B1/Elektrik-c%C9%99dv%C9%99l-01_07_2024.pdf

### İstehlakçıya elektrik enerjisinin verilməsi enerji təchizatı müəssisəsi tərəfindən aşağıdakı hallarda dayandırıla bilər?

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 fevral 2005-ci il tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nın 9.13-cü bəndinə əsasən aşağıdakı hallarda istehlakçıya elektrik enerjisinin verilməsi enerji təchizatı müəssisəsi tərəfindən dayandırıla bilər:

- İstehlakçının müvafiq yazılı müraciəti (elektrik enerjisinin verilməsinin dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda;
- enerji təchizatı müəssisəsinin istehlakçıya verdiyi elektrik enerjisinin sayğacla müəyyənləşən hesabı istehlakçıya enerji təchizatı müəssisəsi tərəfindən təqdim edildikdən (göndərildikdən) sonra bir ay müddətində tam məbləğdə ödənilmədikdə;
- təmir-profilaktika və qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındıqda;
- enerji təchizatı müəssisəsi ilə müvafiq müqavilə bağlanmadıqda;
- məhkəmənin qərarı ilə;
- dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldıqda, həmin əməliyyatın aparılma zonasında, dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan orqanın göstərişi əsasında.

Sözügedən Qaydaların 9.13-2-ci bəndinə əsasən elektrik enerjisinin verilməsinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan və müvafiq qaydada rəsmiləşdirildikdən sonra bir gün müddətində enerji təchizatı müəssisəsi tərəfindən elektrik enerjisinin verilməsi bərpa edilməlidir. https://e-qanun.az/framework/7419

***Elektrik enerjisinin verilişində yaranan fasilənin müddəti (SAIDI) və sayı (SAIFI) barədə məlumat***

Paytaxt Bakı şəhəri üzrə 2023-ci il ərzində orta hesabla istehlakçıya elektrik enerjisinin verilişində yaranmış fasilənin müddəti (SAIDI) 0,852 saat təşkil edib. Ötən il ərzində orta hesabla istehlakçıya elektrik enerjisinin verilişində yaranmış fasilənin sayı isə (SAIFI) 0,924 dəfə olub. 2022-ci il ərzində SAIDI göstəricisi 0,818 saat, SAIFI göstəricisi isə 0,924 dəfə olub.

Bu göstəricilər əvvəlki illərlə müqayisədə həm müddət, həm də say baxımından aşağıdır. Bunun başlıca səbəbi son illərdə Bakı şəhərini paylayıcı şəbəkəsində olan 110 və 35 kV-luq yarımstansiyaların tikilərək tam yenidən qurulması, paytaxtın demək 90 faizindən artıq ərazisində yeraltı kabelləşmə işininn həyata keçirilməsi, dairəvi elektrik təchizat sxemlərinin yaradılması və şəbəkələrin əks-qəza avtomatikasına qoşulmasıdır.

https://www.azerishiq.az/menu/acilmalar-saidi-saifi

***Məişət və qeyri-məişət istehlakçılarının elektrik sayğacları ilə təmin edilməsi necə tənzimlənir?***

“Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanunun 29.9-cu maddəsinə əsasən tikinti obyektinin qoşulduğu ötürücü və ya paylayıcı şəbəkədən asılı olaraq məişət istehlakçıları üçün sayğaclar müvafiq olaraq ötürücü və ya paylayıcı sistem operatorunun vəsaiti hesabına, qeyri-məişət istehlakçıları üçün isə sayğaclar istehlakçının vəsaiti hesabına müvafiq olaraq ötürücü və ya paylayıcı sistem operatoru tərəfindən təchiz edilir, quraşdırılır və dəyişdirilir. https://e-qanun.az/framework/54209

***Aktiv istehlakçı kimdir?***

“Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununun 1.1.1. maddəsinə əsasən aktiv istehlakçı – elektrik enerjisini istehlak etməklə yanaşı, bərpa olunan enerji mənbələri hesabına 150 kVt-dək (150 kVt daxil olmaqla) elektrik enerjisi istehsal edən hüquqi və ya fiziki şəxs(lər)dir (https://e-qanun.az/framework/54209).
“Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikası Qanununun 10.3-cü maddəsinə uyğun olaraq aktiv istehlakçının dəstəklənməsi mexanizmindən istifadə edən istehlakçılar öz vəsaitləri hesabına elektrik şəbəkəsinə ötürülən və şəbəkədən alınan elektrik enerjisinin hesablanmasına imkan verən sayğac quraşdırmalıdırlar. Enerji təchizatı müəssisəsi ilə aktiv istehlakçı arasında əvəzləşdirmə və hesablaşma sözügedən qanunun 10-cu maddəsinə uyğun olaraq həyata keçirilir (https://e-qanun.az/framework/47842).

# Su təchizatı şəbəkəsinə qoşulma

***Su təchizatı və tullantı sularının axıdılması sisteminə (STTSAS) qoşulma üzrə müraciət imkanları***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 iyun 2024-cü il tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası" əsasən Su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulmalar üzrə müraciət xidmət nöqtələrindən, yəni "ASAN Kommunal" mərkəzləri, "ASAN xidmət" mərkəzləri və sahibkarlıq subyektlərinə münasibətdə, həmçinin Kiçik və orta biznes evlərindən (KOB evləri) müraciət edə bilərlər. (https://nk.gov.az/uploads/doc/docs/667688f608681.pdf )

***STTSAS-a qoşulma müddəti***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 iyun 2024-cü il tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası" əsasən sifarişçinin tikinti obyektinin STTSAS-yə qoşulması onun müraciət etdiyi tarixdən 30 (otuz) gec olmayaraq təmin edilməlidir. (https://nk.gov.az/uploads/doc/docs/667688f608681.pdf )

***STTSAS-a qoşulma tarifləri***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 iyun 2024-cü il tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası" əsasən qoşulma xidmətinə görə ödəniş Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğə əsasən həyata keçirilir. (https://nk.gov.az/uploads/doc/docs/667688f608681.pdf )

***Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin tarifləri***

"Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin tariflərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 30 yanvar 2021-ci il tarixli 5 nömrəli Qərarına əsasən:

**Su təchizatı xidmətinin tarifləri üzrə (1 kub metrə görə) :**

- Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu ərazilərində:
- əhali istehlakçı qrupu üzrə - 70 qəpik;
- digər inzibati ərazi vahidləri üzrə - 60 qəpik;
- qeyri-əhali istehlakçı qrupu üzrə - 1 manat;

**Tullantı sularının axıdılması xidmətlərinin tarifləri üzrə (1 kub metrə görə) :**

- əhali istehlakçı qrupunda - 30 qəpik;
- qeyri-əhali istehlakçı qrupu üzrə - 1 manat müəyyən olunmuşdur.

(https://e-qanun.az/framework/47999, https://e-qanun.az/framework/48001 )

***İstehlakçıya suyun verilməsi STKM tərəfindən aşağıdakı hallarda dayandırıla bilər.***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş **"Sudan istifadə Qaydaları"na əsasən İstehlakçıya suyun verilməsinin dayandırılması** aşağıdakı hallarda baş verə bilər:

- istehlakçının müvafiq yazılı müraciəti olduqda;
- tikinti, təmir-profilaktika və qəza işlərinin görülməsinə ehtiyac yarandıqda;
- STKM ilə müvafiq müqavilə bağlanılmadıqda;
- məhkəmənin müvafiq qərarı olduqda;
- istifadə edilmiş suyun hesabı istehlakçı tərəfindən vaxtında və tam ödənilmədikdə. (https://e-qanun.az/framework/28153 )

***Su təchizatının verilişində yaranan fasilənin müddəti (SAIDI) və sayı (SAIFI) barədə məlumat***

Respublika ərazisində 2023-cü il ərzində orta hesabla istehlakçıya su təchizatının verilməsində yaranmış fasilənin müddəti (SAIDI) 1.98 saat təşkil edib. Ötən il ərzində orta hesabla istehlakçılara su təchizatının verilməsində yaranmış fasilə sayı isə (SAIFI) 0.24 dəfə olub.

***Məişət və qeyri-məişət istehlakçılarının su sayğacları ilə təmin edilməsi necə tənzimlənir?***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sudan istifadə Qaydaları"na əsasən STKM ilə istehlakçı arasında suyun sərfinə görə hesablaşmanın aparılması üçün balans mənsubiyyəti sərhədində müvafiq suölçən cihaz quraşdırılır. Həmin tələblərə cavab verməyən suölçən cihazların və digər ölçmə vasitələrinin quraşdırılması qadağandır. (https://e-qanun.az/framework/28153)

***İstehlakçı kimdir?***

Azərbaycan Respublikasının "Su təchizatı və tullantı suları haqqında" Qanununa əsasən istehlakçı su təchizatı və kanalizasiya müəssisəsinin xidmətlərindən istifadə edən hüquqi və fiziki şəxsdir. (https://e-qanun.az/framework/74)

# İnternetə qoşulma

### *Müəssisənin sabit genişzolaqlı internet xidmətinə qoşulması üçün müraciət*

İnternet telekommunikasiya xidməti - beynəlxalq standartlarla müəyyən olunan İnternet protokol əsasında qlobal informasiya şəbəkəsində göstərilən telekommunikasiya xidmətidir.

Sabit genişzolaqlı internet müəssisələr üçün əsas infrastruktur elementlərindən biridir.

İdarə, müəssisə, təşkilat və vətəndaşlar İnternet telekommunikasiya xidmətindən istifadə etmək üçün İnternet Provayderlərinə müraciət edə bilərlər. Müraciət yazılı və elektron poçtla ola bilər. İnternet Provayderləri internet telekommunikasiya xidmət növləri üzrə və uyğun olaraq çəkiliş prosedurası və qiymətləri haqqında məlumat verməlidirlər. İnternet telekommunikasiya xidmətindən istifadəyə görə Provayderlər Abunəçilərlə qanunvericiliyin (Telekommunikasiya haqqında Azərbaycan Respublikasinin Qanununun 40-cı maddəsi – Abunəçi ilə bağlanan müqaviləyə dair zəruri tələblər) tələblərinə uyğun olaraq tərəflərin hüquq, vəzifə və məsuliyyətlərini əks edən müqavilə bağlamalıdırlar. Müqavilə 2 nüsxədə tərtib olunur və onlardan biri Abunəçiyə verilir, digəri isə Provayderdə saxlanılır.

Genişzolaqlı internet xidmətlərinin keyfiyyətli göstərilməsi müvafiq tənzimləmələrə uyğun həyata keçirilir. https://e-qanun.az/framework/10663, https://e-qanun.az/framework/56001

### *Müraciət əsasında sabit genişzolaqlı internet xidmətinə qoşulma müddəti*

İstifadəçinin xidmətə qoşulmaq üçün müraciət anı ilə xidmət təqdim edən sahibkarlıq subyektinin xidmət üçün lazım olan vasitələri təmin etməsi anı arasındakı müddət “≤ 6” gün olmalıdır.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 21 dekabr tarixli 3-27/3-7-18/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş “Rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəriciləri”ndə xidmətə qoşulma müddəti öz əksini tapmışdır. https://e-qanun.az/framework/56001

### *İnternet xidmətinə qoşulma üçün ümumi ödəniş (müraciət və quraşdırma haqları daxil olmaqla)*

Provayder, Abunəçiyə göstərdiyi xidmət müqabilində hesablaşma aparır. İnternet Provayderlərinin göstərdiyi internet xidmətlərinin haqqı, Provayderlər tərəfindən təsdiq olunan internet xidmətləri üçün tarif preyskurantına əsasən ödənilir. İnternet xidmətinə qoşulma üçün ümumi ödəniş (avadanlıq, quraşdırma haqları daxil olmaqla) və aylıq abunə haqları əvvəlcədən ödənilir. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əsasən Abunəçiyə göstərilən xidmətlərə görə ƏDV (əlavə dəyər vergisi) tutulur. Ödəmə, hər ay Provayder tərəfindən təqdim edilmiş hesaba görə Provayderin hesabına nəğd və ya köçürmə yolu ilə həyata keçirilir.

Abunəçilər xidmət tariflərinin dəyişməsi ilə əlaqədar əvvəlcədən İnternet Provayderlər tərəfindən yazılı şəkildə və ya email-lə xəbərdarlıq edilməlidir.

### *Müəssisənin internet təchizatı ilə bağlı fasilələrlə (kəsintilərlə) üzləşməsi*

Mövcud qanunvericiliyə əsasən internet provayderlərin vəzifələrindən biri də telekommunikasiya xidmətlərini müəyyən edilmiş standart, norma və qaydalara uyğun keyfiyyətlə göstərməkdir. Əgər internet xidmətində tam dayanma və ya müqavilədə nəzərdə tutulan sürətdən dəfələrlə az və birbaşa xidmət təminatçısının səhvi səbəbindən baş vermiş sürət azalması kimi problemlər yaşamısınızsa, bu barədə provayderə və aidiyyəti qurumlara (məsələn: İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin E-Şikayət sisteminə e-complaint.icta.az və s.) məlumat verə bilərsiniz.

### *Müəssisənin internet təchizatı ilə bağlı yaranmış fasilələrin müddəti*

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 21 dekabr tarixli 3-27/3-7-18/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəriciləri"ndə Orta Bərpa Vaxtı - xidmətin əlçatan olmayan vaxt intervallarının orta müddəti, Zədələnmə səviyyəsi - müəyyən vaxt vahidi üçün zədələnmələrin orta sayının nisbəti və Bərpa səviyyəsi - müəyyən vaxt ərzində zədəli vəziyyətdən işlək vəziyyətə keçidlərin orta sayının nisbəti kimi keyfiyyət tələbləri öz əksini tapmışdır. https://e-qanun.az/framework/56001, https://e-qanun.az/framework/10663

### *İnternet fasilələrindən irəli gələn itkilər təxminən nə qədər olub (illik satışların faizi və ya ümumi illik itki kimi)?*

Fasilələr nəticəsində yaranan zərərlər müəssisələrin maliyyə göstəricilərinə təsir edir. Telekommunikasiya fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar dəymiş zərərin ödənilməsi ilə bağlı yaranan problemlər zamanı qanunvericilikdə müəyyən kompensasiya mexanizmləri mövcuddur. Bu, Telekommunikasiya Haqqında Azərbaycan Respublikasının Qanununun 41-ci (Telekommunikasiya fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar dəymiş zərərin ödənilməsi) maddəsində öz əksini tapmışdır. https://e-qanun.az/framework/10663

### *Müəssisənin internet provayderini dəyişmək hüququ*

Mövcud müqavilələr, texniki problemlər və bazardakı alternativlərin sayı bu məsələyə təsir edə bilər. Azərbaycanda mövcud qanunvericilik bu prosesi tənzimləyir və asanlaşdırır. Telekommunikasiya Haqqında Azərbaycan Respublikasının Qanununun 34-cü (Abunəçilərin hüquq və vəzifələri) maddəsinə əsasən abunəçilər operatoru, provayderi sərbəst seçmək və eyni zamanda keyfiyyətli telekommunikasiya xidmətlərini tələb etmək hüququna malikdir.

Həmçinin İstehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə (İstehlakçıların hüquqları) əsasən Azərbaycan Respublikası ərazisində istehlakçılar malların (işlərin, xidmətlərin) və onların istehsalçısının, icraçısının və satıcısının sərbəst seçilməsi və eləcə də istehlak etdikləri malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətdə olması hüququna malikdirlər. https://e-qanun.az/framework/10663, https://e-qanun.az/framework/9479

# Beynəlxalq ticarət

2023-cü il ərzində Azərbaycan Respublikası ərazisindən ixrac olunan mallar aşağıda qeyd edilən nəqliyyat vasitələri ilə daşınmışdır (çəki və statistik dəyər üzrə):

| Daşınma vasitəsi | İxrac | | | |
|---|---|---|---|---|
| | Netto (ton) | Netto çəkiyə görə %-lə | Statistik dəyər (min ABŞ dol) | Statistik dəyərə görə %-lə |
| 10 Dəniz nəqliyyatı vasitələri | 78913,19 | 0,15 | 182468,79 | 0,54 |
| 20 Dəmiryolu nəqliyyatı vasitələri | 3255397,46 | 6,35 | 1151519,71 | 3,40 |
| 30 Avtomobil nəqliyyatı vasitələri | 2027048,72 | 3,95 | 1828509,87 | 5,39 |
| 40 Hava nəqliyyatı vasitələri | 86782,01 | 0,17 | 340173,20 | 1,00 |
| 50 Poçt göndərişi | 8,94 | 0,00 | 3697,68 | 0,01 |
| 70 Stasionar nəql etmə vasitələri | 45833913,99 | 89,37 | 30385753,52 | 89,64 |
| 90 Özü hərəkət edən vasitələr | 1001,36 | 0,00 | 6295,95 | 0,02 |
| Yekun: | 51283065,67 | 100,00 | 33898418,71 | 100,00 |

Malların Azərbaycan Respublikası ərazisindən ixrac olunması zamanı müddət hesablanarkən aşağıda qeyd olunan mərhələlər nəzərə alınmalıdır:

- gömrük orqanından asılı olmayan müddətlər istisna olmaqla (qeyri-iş günləri, istirahət günləri, bəyannamənin geri qaytarılması, ekspertiza üçün göndərilməsi və ödənişlərin ödənilməsi üçün tələb olunan müddət) malların ixracı zamanı ixrac gömrük bəyannaməsinin gömrük orqanına göndərildiyi (Status: rəsmiləşdirmək üçün göndərildi) müddətdən bəyannamənin təsdiq olunduğu tarixədək olan müddət (Status: GB təsdiqləndi və sərhəd gömrük orqanına buraxılış üçün göndərildi);
- malların dövlət sərhədindən buraxılış məntəqəsinə çatdırıldığı müddətdən yükün buraxılışının gömrük orqanı tərəfindən təsdiq edildiyi (Yük buraxıldı) tarixədək olan müddət.

***İNCOTERMS (Beynəlxalq ticarət sövdələşməsi)*** - Məhsulların satışı və çatdırılması üzrə imzalanan xarici və yerli müqavilələr çərçivəsində tərəflərin müvafiq öhdəlikləri, o cümlədən xərc və risklərin müəyyənləşdirilməsi ilə əlaqədar qəbul olunmuş beynəlxlaq standartlardan ibarətdir. Bu qaydalar məhsulun satıcıdan alıcıya çatdırılması zamanı qeyd olunan məsələlər üzrə tərəflər arasındakı münasibətləri tənzimləyir.

- *FCA (Free Carrier – satıcının ölkəsində razılışdırılmış yer)* – Satıcı malları ixrac üçün hazır etməli və Alıcı tərəfindən müəyyən olunmuş yerdə malları alıcının təyin etdiyi daşıyıcıya təhvil verməlidir. FCA-də razılaşdırılmış yer dəniz limanından başqa istənilən məkan, hava limanı və ya dəmir yolu ola bilər. Razılaşdırılmış yer satıcının anbarı da ola bilər.
- *DAP (Delivered at Place – alıcının ölkəsində razılaşdırılmış yer)* – Satıcı alıcının ölkəsindəki terminaldan kənarda olan razılaşdırılmış yerə çatdırılma üçün bütün xərclərə və risklərə görə məsuliyyət daşıyır. Satıcı malları təhvil verməyi etməyi, razılaşdırılmış yerdə malları boşaltmağı öhdəsinə götürür. Ödənişə daxildir: DAT xərci + razılaşdırılmış yerə çatdırılma + razılaşdırılmış yerdə boşaldılma. Satıcının öhdəliyi bitir: boşaltma limanında mallar boşaldıldıqda.

İnkotermslər barədə ətraflı məlumatların linki:
https://az.wikipedia.org/wiki/%C4%B0nkoterms

Müəssisələr istehsal etdikləri məhsulları 3 formada reallaşdırırlar:

- daxili bazarda satış;

- digər ölkəyə ixrac;
- digər ölkəyə ixrac məqsədilə 3-cü tərəfə satış.

Ölkə üzrə statistik məlumatların daha dəqiq əldə edilməsi məqsədilə hər bir kateqoriya üzrə məhsulların dəqiq hesabatının aparılması tövsiyə edilir.

İxrac əməliyyatları həyata keçirilən zaman çəkilən xərclərin strukturu:

- Tələb olunan icazə sənədləri ilə bağlı xərclər – "Dövlət rüsumu" haqqında Aərbaycan Respublikasının 4 dekabr 2001-ci il tarixli 223-IIQ nömrəli Qanunu (https://e-qanun.az/framework/2860);
- Gömrük ödənişləri üzrə xərclər – Azərbaycan Respublikasının Gömrük Məcəlləsi (https://e-qanun.az/framework/46957), Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin təsdiq edilməsi haqqında 17 noyabr 2017-ci il tarixli 500 nömrəli Qərarı (https://e-qanun.az/framework/37035), "Gömrük yığımlarının məbləğləri"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 aprel 2016-cı il tarixli 168 nömrəli Qərarı (https://e-qanun.az/framework/32656);
- Digər xərclər (Elektron xidmətə görə haqq, elektron xidmətə görə haqdan ƏDV, gömrük təmsilçiliyi fəaliyyətindən istifadə, sığorta, daşınma və digər xərclər).

Dövlət Gömrük Komitəsi tərəfindən 2023-cü ilin fevral ayından etibarən ixrac zamanı sərhəddə yük nəqliyyat vasitələri üçün elektron növbə sistemi tətbiq olunmağa başlanmışdır. Bu sistemin əsas üstünlüklərindən biri sərhəd gömrük postlarında gözləmə müddətlərini azaltmaq və gömrük əməliyyatlarını daha səmərəli hala gətirməkdir. Elektron növbə sisteminin tətbiqi nəticəsində yükdaşımalar daha planlı şəkildə həyata keçirilir ki, bu da sərhəd keçid məntəqələrində tıxacların qarşısını alır və daha sürətli keçid imkanı yaradır. Bundan əlavə, sözügedən sistem vasitəsilə növbələr real vaxtda izlənə bilər və bu da nəticə etibarilə resursların daha effektiv şəkildə idarə olunmasına və gömrük proseslərinin sürətlənməsinə imkan yaradır.
https://e.customs.gov.az/for-individuals/live-queue,
https://customs.gov.az/az/faydali/xeberler/4018

Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal və ixrac olunan mallar üzrə gömrük rüsumlarının dərəcələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin təsdiq edilməsi haqqında 17 noyabr 2017-ci il tarixli 500 nömrəli Qərarı ilə tənzimlənir. (https://e-qanun.az/framework/37035)

Gömrük orqanları tərəfindən həyata keçirilən xidmətlərə və hüquqi hərəkətlərə görə alınan gömrük yığımlarının məbləği "Gömrük yığımlarının məbləğləri"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 aprel 2016-cı il tarixli 168 nömrəli Qərarı ilə tənzimlənir. (https://e-qanun.az/framework/32656)

2024-cü ilin yanvar ayından etibarən Dövlət Gömrük Komitəsi tərəfindən süni intellekt əsaslı Avtomatlaşdırılmış Risk Analizi Sistemi (ARAS) tətbiq edilməkdədir. ARAS məlumatların öncədən emalı hesabına yük və nəqliyyat vasitələrinin sürətli sərhəd keçidinə, çevik gömrük rəsmiləşdirilməsinə şərait yaradan, biznes subyektlərinin əməliyyat xərclərini azaldan süni intellekt əsaslı maşın öyrənmə alqoritmləri ilə işləyən Avtomatlaşdırılmış Risk Analizi Sistemidir. Sözügedən sistemin tətbiqi nəticəsində xarici ticarət iştirakçılarının, daşıyıcıların, malların (nəqliyyat vasitələrinin) müvafiq indikatorlar üzrə risk profili müəyyən edilməklə onlara sərhəd keçidi və gömrük rəsmiləşdirilməsi proseduru, həmçinin mallar ölkə ərazisinə

daxil olanadək onlar üçün müvafiq dəhliz (yaşıl, sarı, mavi, qırmızı) və mal buraxılış qaydası risk mühərriki vasitəsilə müəyyən edilir.

https://customs.gov.az/az/faydali/innovativ-layiheler/aras

***Sistemin tətbiqi üzrə səmərəlilik:*** Sistemin tətbiqi nəticəsində ötən ilin və cari ilin yanvar-sentyabr ayları üzrə idxal-ixrac əməliyyatları ilə əlaqədar vaxt və xərclərin səmərəliliyinin qiymətləndirilməsi ilə bağlı monitorinq və təhlillər aparılmışdır. Aparılan təhlillərin nəticəsində müəyyən edilmişdir ki, sərhədkeçmə komponenti üzrə sərhədkeçmə müddəti çərçivəsində nəqliyyat vasitələrinin qeydiyyatının aparılmasına sərf olunan vaxt ötən ilin müvafiq dövrü ilə müqayisədə 53% müsbət dinamika ilə müşahidə olunmaqla 55 (əlli beş) dəqiqədən 26 (iyirmi altı) dəqiqəyə endirilmişdir. Eyni zamanda, qeydiyyat prosesi 30 (otuz) dəqiqəyədək tamamlanan nəqliyyat vasitələrinin payında da artım müşahidə olunmuşdur. Ümumi nəqliyyat vasitələrinin 49%-nin qeydiyyatının 30 (otuz) dəqiqə ərzində tamamlandığını nəzərə alsaq, bu ilin müvafiq dövründə artıq 66% faiz nəqliyyat vasitəsinin qeydiyyatı tamamlanmışdır ki, bu da 18% müsbət dinamikanın göstəricisidir.

# Arbitraja dair qanunvericilik tənzimlənməsi

Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanunu ilə “Arbirtaj haqqında” yeni Qanun (*https://e-qanun.az/framework/56210*) təsdiq edilmişdir.

Qanunun qəbul edilməsi ilə “Beynəlxalq arbitraj haqqında” Azərbaycan Respublikasının Qanunu ləğv edilmiş, mübahisələrin alternativ həlli mexanizmlərini sırasına beynəlxalq arbitrajla yanaşı, daxili arbitraj da aid edilmişdir.

**Arbitraj** - daimi arbitraj təşkilatı tərəfindən idarə edilib-edilməməsindən asılı olmayaraq arbitraj məhkəməsi tərəfindən məcburi hüquqi qüvvəyə malik qərarın çıxarılması məqsədilə həyata keçirilən mübahisəyə baxılma prosesidir.

Arbitrajda həll oluna bilməyən işlər *(Qanunun 13.2-ci maddəsində müəyyən olunmuşdur)* istisna olmaqla, kommersiya mübahisələri, habelə tərəflərin mübahisənin predmeti barədə sərəncam hüququna malik olduğu və üçüncü şəxslərin hüquqlarına, qanuni mənafelərinə toxunmayan **bütün mübahisələr** arbitrajda həll edilə bilər.

Arbitraj **beynəlxalq** və ya **daxili** ola bilər. Arbitrajın beynəlxalq sayılması əsasları Qanunun 4-cü maddəsində tənzimlənmişdir. Qanunun 11 və 12-ci maddələrinə görə daxili arbitraj daimi arbitraj təşkilatı tərəfindən idarə edilir. Beynəlxalq arbitraj isə həm daxili arbitraj təşkilatları tərəfindən, həm də ad hoc (ad hok) qaydada idarə oluna bilər.

Arbitraja münasibətdə **nəzarət və yardım** funksiyalarını aidiyyəti üzrə Bakı Kommersiya Məhkəməsi, Bakı Apellyasiya Məhkəməsi və Azərbaycan Respublikasının Ali Məhkəməsi yerinə yetirir *(Qanunun 10-cu maddəsi)*.

Qanunun qəbulu ilə eyni gündə **Mülki Prosessual Məcəllədə** *(https://e-qanun.az/framework/46945)* də dəyişiklik edilmiş və Məcəllənin 50-ci fəsli “Xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası” adlandırılaraq yenilənmiş, habelə Məcəlləyə “Arbitraja münasibətdə yardım və nəzarət funksiyalarının yerinə yetirilməsi ilə bağlı işlər üzrə icraat” bölməsi əlavə edilmişdir.

Arbitrajın əsas xarakterik xüsusiyyətlərindən biri də arbitraj qərarının ləğvi, yaxud xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası haqqında ərizə verildikdə bu ərizəyə baxarkən məhkəmənin arbitraj məhkəməsinin qərarına mahiyyəti üzrə yenidən baxmaq səlahiyyətinin olmamasıdır. Yəni arbitraj məhkəməsinin qərarı qətidir və yalnız Qanunun 54.1 və 56.1-ci maddələrində qeyd olunan əsaslar mövcud olduqda o, tam və ya qismən ləğv edilə, yaxud onun tam və ya qismən tanınmasından və ya icra edilməsindən imtina edilə bilər.

## Mediasiyaya dair qanunvericilik tənzimlənməsi

Mediasiya ölkəmizdə mübahisələrin alternativ həll yollarından biridir.

"Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu *(https://e-qanun.az/framework/41828)* 2019-cu il 29 mart tarixində qəbul edilmiş və 2021-ci il iyulun 1-dən qüvvəyə minmişdir.

Bu Qanun mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləyir, mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu müəyyən edir.

**Mediasiya** – mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı adıçəkilən Qanunla müəyyən olunan prosesdir *(Qanunun 1.0.1-ci maddəsi).*

Mediasiya könüllülük, tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı, mediatorların müstəqilliyi, qərəzsizliyi və mediasiya prosesinə müdaxilənin yolverilməzliyi və konfidensiallıq prinsipləri əsasında aparılır *(Qanunun 5-8-ci maddələri)*.

Ölkəmizdə mediasiya mülki, kommersiya, ailə, əmək və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə aparılır.

# Məhkəmələrin (hakimlərin) müstəqilliyi və qərəzsizliyi

Azərbaycan Respublikası Konstitusiyasının (https://e-qanun.az/framework/897) 127-ci maddəsinə görə hakimlər **müstəqildir**, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər. Hakimlər işlərə **qərəzsiz**, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.

Hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanuna zidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir.

Bundan başqa "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununun (https://e-qanun.az/framework/3933) 8-ci maddəsinə əsasən ədalət mühakiməsi **hakimlərin müstəqilliyi təmin edilməklə**, heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən, **qərəzsiz**, ədalətlə və qanunlara müvafiq həyata keçirilir.

Məhkəmə qərarları hakimlərin sərbəst daxili inamına və məhkəmə araşdırmasının nəticələrinə əsaslanmalıdır. Hakimin fəaliyyətinə kənar müdaxilə olduqda, o, bu barədə Məhkəmə-Hüquq Şurasına müraciət etməlidir.

Məhkəmə-Hüquq Şurası Azərbaycan Respublikasında məhkəmə sisteminin təşkilinin, **hakimlərin və məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsi**, hakim vəzifəsinə namizədlərin seçilməsinin təşkili, **hakimlərin fəaliyyətinin qiymətləndirilməsi**, onların iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, **intizam məsuliyyətinə cəlb edilməsi,** habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyəti daxilində həll edən məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən orqandır (https://e-qanun.az/framework/7303).

# Korporativ idarəetmə

***Maliyyə ili ərzində istehsal prosesində problem yarandıqda müəssisədə baş verən proseslər***

Təşkilatın dəyişən konteksti ona mənfi təsir göstərdikdə o, dayanıqlı qala və yaxşı korporativ idarəetmə tədbirləri vasitəsilə bu dəyişikliklərdən irəli gələn dəyərli imkanları reallaşdıra bilər. Bu tədbirlərə strategiyanın uyğunlaşdırılması, etik liderlik, varisliyin effektiv şəkildə planlaşdırılması, səlahiyyətin və öhdəliklərin aydın şəkildə ötürülməsi, risklərin idarə edilməsinə və daxili nəzarət tədbirlərinə ümumi nəzarət daxildir.

***Maliyyə ili ərzində müəssisədə performans indikatorlarının monitorinqinin aparılması***

İdarəetmə orqanının effektiv nəzarəti təşkilati məqsədə, strateji nəticələrə nəzərdə tutulduğu və tələb olunduğu kimi nail olmağı təmin edir. Nəzarət önəmlidir, çünki idarəetmə orqanı ötürülən öhdəliklərin tələb olunduğu kimi yerinə yetirilməsini və qərarların ötürülən səlahiyyət çərçivəsində qəbul edilməsini təmin etməlidir. İdarəetmə orqanı nəzarət vasitəsilə təşkilati məqsədə nail olmaq üçün lazım olduqda düzəldici tədbirlər görür. İdarəetmə orqanın nəzarət səyləri müxtəlif amillərdən, o cümlədən təşkilatın ölçüsündən və mürəkkəbliyindən asılı olur.

***Maliyyə ili ərzində müəssisənin istehsal/xidmət təminatı hədəflərinin müəyyən olunması***

İstehsal hədəflərinə misal olaraq istehsalın həcmi, keyfiyyət, səmərəlilik, tullantı və ya vaxtında çatdırılma ola bilər. Xidmət təminatının hədəflərinə misal olaraq satış, müştəri məmnuniyyəti, səmərəlilik, israfçılıq və ya vaxtında çatdırılma ola bilər.

Korporativ idarəetmə təşkilat üçün təyin edilən parametrlər çərçivəsində təşkilatın öz məqsədini yerinə yetirməsini təşkil etməyi və ona cavabdeh olmağı ehtiva edir, menecement isə həmin parametrlər daxilində seçimlər etməklə müvafiq hədəflərə çatmaq ilə bağlıdır.

Azərbaycan Standartlaşdırma İnstitutu (Korporativ idarəetmə. Rəhbəredici göstərişlər https://e-standart.gov.az/Standard/Details/486dde5e-a4b1-467d-ba00-aaea804d6751)

# Biznes-Hökumət Münasibətləri

### *Müəssisə tərəfindən idxal lisenziyası almaq üçün müraciətin edilməsi*

"Lisenziyalar və icazələr haqqında" AR Qanununa əsasən, Prekursorların, Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin ölkəmizə idxalına lisenziya tələb olunur. Eyni zamanda, həmin qanuna əsasən, dini təyinatlı ədəbiyyatın, "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) , kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin, dərman vasitələrinin, elektrik enerjisinin ölkəmizə idxalına icazə tələb olunur. https://e-qanun.az/framework/32626

### *Ərizə verildiyi gündən təmin edildiyi günə qədər lisenziyanı əldə etmək tələb olunan gün*

Lisenziyanın və icazənin verilməsinin sadələşdirilməsi, bununla bağlı inzibati prosedurların, tələb olunan sənədlərin sayının, müddətin və xərclərin azaldılması məqsədi ilə "bir pəncərə" prinsipi tətbiq edilir. Lisenziyaların verilmə müddətləri fəaliyyət növlərindən asılı olaraq dəyişir (ekspert rəylərinin alınması, müvafiq uzadılmalar və s.) və ən çox müdət 30 gün müəyyən edilmişdir.

https://e-qanun.az/framework/32626
https://asan.gov.az/service/asan-xidmetler/lisenziyalarin-verilmesi

### *Müəssisə tərəfindən əməliyyat lisenziyası almaq üçün müraciət edilməsi*

Lisenziya tələb olunan fəaliyyət növləri və icazələr (maliyyə bazarları sahəsində istisna olmaqla) yalnız "Lisenziyalar və icazələr haqqında" AR Qanunu ilə müəyyən edilir. https://e-qanun.az/framework/32626

### *Dövlət satınalmalarında iştirak*

Qanunvericilikdə müəyyən edilmiş hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla satınalma yalnız portal vasitəsilə həyata keçirilir.

Təchizatçılar tərəfindən satınalmalarda iştirakla əlaqədar portaldan istifadə etmək üçün istifadə haqqı ödənilir. Təchizatçı təqdim etdiyi təklifə uyğunluq sənədlərini, təklifin təminatını, habelə şərtlər toplusunda nəzərdə tutulduğu halda, subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədləri əlavə edir. Təkliflər kağız daşıyıcılarda onların açılmasına ən geci 1 (bir) saat qalanadək, portal vasitəsilə isə onların təqdim edilməsi üçün müəyyən edilən müddət başa çatanadək satınalan təşkilata təqdim edilir.

Satınalma müqaviləsi üzrə ödəmələr (o cümlədən avans ödənişi) satınalma komissiyası tərəfindən şərtlər toplusunda və satınalma müqaviləsinin xüsusi şərtlərində müəyyənləşdirilmiş qaydada və məbləğdə, təchizatçının təqdim etdiyi sənədlər (elektron qaimə-fakturalar, aktlar və digər sənədlər) əsasında, ən qısa müddət ərzində, lakin 15 (on beş) iş günündən gec olmayaraq aparılır.

Satınalma müqaviləsinin icrası tam başa çatdıqdan (tələb olunduğu halda, zəmanət müddəti daxil olmaqla) və bunu təsdiq edən sənədlər tərtib olunduqdan sonra (çatışmazlıqlar olduğu halda, onların aradan qaldırılması müddəti nəzərə alınmaqla) 15 (on beş) iş günü ərzində satınalan təşkilatla təchizatçı arasında son haqq-hesab aparılır, təhvil-təslim aktı imzalanır və həmin müddət ərzində yekun məbləğ təchizatçıya ödənilir.

Bu sahədə münasibətlərin tənzimlənməsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunun tələbləri nəzərə alınmaqla həyata keçirilir. (https://e-qanun.az/framework/54966)

# Əmtəə bazarı və rəqabət

Müvafiq bazar dedikdə coğrafi sərhədlərindən kənarda müştərinin iqtisadi, texniki və ya digər praktiki səbəblərdən müvafiq əmtəəni əldə etməyi məqsədəuyğun hesab etmədiyi və xüsusiyyətləri, qiymətləri və istifadə təyinatı eyni olan, yaxud qarşılıqlı əvəz oluna bilən əmtəələrin təklif olunduğu bazar nəzərdə tutulur. Müvafiq bazar anlayışı 2 mərhələdə müəyyən edilir:

- müvafiq məhsul bazarı;
- müvafiq coğrafi bazar.

Müvafiq məhsul bazarı müvafiq məhsulu tələb edən müştərinin həmin məhsula olan tələbinin eyni və ya oxşar xüsusiyyətlər və imkanlar ilə qarşılandığı, onlar üçün bənzər izafi faydanın yaradıldığı, həmin məhsulun eyni və ya oxşar xüsusiyyətlər ilə satıldığı bazardır. Coğrafi bazar isə müvafiq məhsulu tələb edən müştərinin həmin məhsula olan tələbinin eyni və ya oxşar xüsusiyyətlər və imkanlar ilə qarşılandığı, onlar üçün bənzər izafi faydanın yaradıldığı, həmin məhsulun eyni və ya oxşar xüsusiyyətlər ilə satıldığı coğrafi ərazinin sərhədlərini müəyyən edir. Bu sahədə münasibətlərin tənzimlənməsi Rəqabət Məcəlləsinin tələbləri nəzərə alınmaqla həyata keçirilir. (https://e-qanun.az/framework/56187)

### *Rəqib nədir?*

Rəqib dedikdə müvafiq bazara məhsul çıxara bilən təsərrüfat subyekti başa düşülür. Bu zaman müvafiq bazar anlayışına diqqət yetirilməlidir. Belə ki, Bu sahədə müvafiq bazarın və rəqiblərin dairəsinin müəyyən edilməsi Rəqabət Məcəlləsinin tələbləri nəzərə alınmaqla həyata keçirilir. (https://e-qanun.az/framework/56187)

### *Bazar payı nədir və necə müəyyən edilir?*

Bazar payı dedikdə bir və ya bir neçə təsərrüfat subyektinin müvafiq bazardakı satış dövriyyəsinin həmin bazardakı ümumi dövriyyəyə nisbəti başa düşülür. Bazar payının müəyyən edilməsi üçün müvafiq bazar iştirakçılarının payları müvafiq bazarın hər bir iştirakçısının müəyyən zaman aralığı ərzində və həmin bazar üzrə təsbit edilmiş coğrafi sərhədlər daxilində kəmiyyət göstəriciləri (*məsələn satış həcmi*) üzrə fəaliyyət həcminin müvafiq bazarın bütün iştirakçılarının həmin fəaliyyət üzrə fəaliyyət həcmlərinin cəminə bölünməsinin yüzə vurulması ilə əldə edilir. Bazar subyektlərinin hər birinin ayrılıqdakı bazar paylarının cəmi yüzə bərabərdir. Bu sahədə münasibətlərin tənzimlənməsi Rəqabət Məcəlləsinin tələbləri nəzərə alınmaqla həyata keçirilir. (https://e-qanun.az/framework/56187)

### *Bazarın rəqabət vəziyyəti necə müəyyən edilir?*

Bazarın rəqabət vəziyyəti qiymətləndirilərkən bazarın təmərküzləşmə səviyyəsi və bazara giriş maneələrinin səviyyəsi təhlil edilir. Bazara giriş maneələri dedikdə bazarda potensial rəqabəti, habelə potensial rəqiblərin və ya digər təsərrüfat subyektlərinin müvafiq bazara daxil olmasını məhdudlaşdıra və ya qarşısını ala bilən və bununla da bazarda mövcud olan təsərrüfat subyektləri üçün üstünlüklər yaradan hər hansı hüquqi, iqtisadi və ya inzibati şərait, habelə hərəkət (hərəkətsizlik) başa düşülür. Bu sahədə münasibətlərin tənzimlənməsi Rəqabət Məcəlləsinin tələbləri nəzərə alınmaqla həyata keçirilir. (https://e-qanun.az/framework/56187)

### *Məhsulun qiymətini müəyyən etmə*

Sahibkar öz fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyinə əməl etməklə öz məhsulları (işləri, xidmətləri) üçün qiymətlər (tariflər) müəyyənləşdirmək hüququna malikdir. Lakin bu zaman Rəqabət Məcəlləsinin tələbləri nəzərə alınmalıdır. Bu sahədə münasibətlərin tənzimlənməsi Rəqabət Məcəlləsinin və "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunun tələbləri nəzərə

alınmaqla həyata keçirilir. (https://e-qanun.az/framework/56187, https://e-qanun.az/framework/7920)

### *Patent və lisenziya tələbləri nədir?*

Patent dedikdə ixtira, faydalı model və sənaye nümunəsi üçün Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi tərəfindən verilən mühafizə sənədi başa düşülür. Nəzərə alınmalıdır ki, patent sahibi olmayan istənilən hüquqi və ya fiziki şəxs ixtira, faydalı model və sənaye nümunəsindən yalnız patent sahibinin razılığı ilə, lisenziya müqaviləsi əsasında istifadə edə bilər. Bu sahədə münasibətlərin tənzimlənməsi "Patent haqqında" Azərbaycan Respublikasının Qanunun tələbləri nəzərə alınmaqla həyata keçirilir. (https://e-qanun.az/framework/3934)

### *Qeydiyyata alınmamış və ya qeyri-rəsmi şirkətlər*

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər vergi orqanlarında uçota alınmalıdır. Hüquqi şəxslər isə əlavə olaraq dövlət qeydiyyatına alınmalıdır. Bu sahədə münasibətlərin tənzimlənməsi Vergi Məcəlləsi və Mülki Məcəllənin tələbləri nəzərə alınmaqla həyata keçirilir. (https://e-qanun.az/framework/46948, https://e-qanun.az/framework/46944)

## Tikintiyə və istismara icazə

### *Tikintiyə və istismara icazə, habelə fərdi evlərin tikintisinə dair məlumatlandırma icraatı üzrə müraciət imkanları*

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanunu və həmin Qanununun tətbiqindən irəli gələrək Azərbaycan Respublikası Prezidentinin 14.06.2023-cü il tarixli 2189 nömrəli Fərmanı qəbul edilmişdir.
Fərmanın tələblərinə əsasən tikinti obyektlərinin tikintisinə və istismarına icazə, habelə məlumatlandırma icraatları "Elektron Tikinti Portalı" vasitəsilə **yalnız elektron qaydada "bir-pəncərə" prinsipi əsasında həyata keçirilir**. Bunun üçün sifarişçi və ya vətəndaş https://e-tikinti.gov.az/ portalı üzərindən ərizə ilə icazə verən orqana müraciət etməlidir. https://e-qanun.az/framework/54402

### *Ekspertizasının keçirilməsi tələb olunan tikinti obyektlərinə tikintiyə icazənin alınması üçün tələb olunan müddət*

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 75.10-cu maddəsinə əsasən müvafiq icra hakimiyyəti orqanı (qurum), layihəsinin ekspertizadan keçirilməsi tələb olunan tikintiyə dair ərizəyə aidiyyəti qurumlardan daxil olmuş rəyləri nəzərə almaqla, **1 ay** (bu Məcəllənin 90.2-ci maddəsində ekspertiza müddətinin uzadılması üçün nəzərdə tutulan hallar istisna olmaqla) müddətində baxır və tikintiyə icazə verir və ya icazə verilməsindən imtina edilməsi barədə qərar qəbul edir. Şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə əməl olunmasını təmin etmək məqsədilə tikintiyə icazədə siyahısını və tətbiqi hallarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əlavə şərtlər də nəzərdə tutulur. https://e-qanun.az/framework/46958

### *Ekspertizasının keçirilməsi tələb olunmayan tikinti obyektlərinə tikintiyə icazənin alınması üçün tələb olunan müddət*

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 75.8-ci maddəsinə əsasən Müvafiq icra hakimiyyəti orqanı (qurum), layihəsinin ekspertizadan keçirilməsi tələb olunmayan tikintiyə dair ərizəyə aidiyyəti qurumlardan daxil olmuş rəyləri nəzərə almaqla **15 iş günü** müddətində baxır və tikintiyə icazə verir və ya icazə verilməsindən imtina edilməsi barədə qərar qəbul edir. https://e-qanun.az/framework/46958

### *Tikintiyə icazənin alınması üçün dövlət rüsumu*

Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanının 1.6-cı maddəsinə əsasən tikintiyə icazə verilməsi üçün sifarişçinin hər hansı ödəniş etməsi nəzərdə tutulmur. https://e-qanun.az/framework/41111

### *İstismara icazənin alınması üçün dövlət rüsumu*

Dövlət rüsumu haqqında Azərbaycan Respublikasının Qanununun 31-ci maddəsinə əsasən 31.1.6. tikinti obyektinin istismarına icazənin verilməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilən hüquqi hərəkətlərə görə **60 manat** dövlət rüsumu tələb olunur. https://e-qanun.az/framework/2860

### *Tikintisinə icazə tələb olunan tikinti layihələrinin istismarına icazənin alınması üçün tələb olunan müddət*

Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 102.4-cü maddəsinə uyğun olaraq, tikinti obyektinin istismarına icazənin verilməsi üçün müraciətin təqdim edildiyi gündən **20 gün**, ekspertizası keçirilməsi tələb olunmayan tikinti layihələrinə münasibətdə **10 gün** müddətində obyektin istismarına icazə verilir. https://e-qanun.az/framework/46958

### *Ekspertizadan keçirilməsi tələb olunan tikinti layihələri*

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 89-cu maddəsində nəzərdə tutulmuş obyektlərin layihələri istisna olmaqla, aşağıdakı tikinti layihələrinin ekspertizadan keçirilməsi məcburidir:

88.1.1. tikintisinə icazə tələb olunan obyektlərin tikinti layihələri - həmin layihələrin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması baxımından;

88.1.2. dövlət vəsaitləri hesabına maliyyələşdirilən obyektlərin tikinti layihələri və smetaları - bu Məcəllənin 88.1.1-ci maddəsində nəzərdə tutulanlardan əlavə həm də həmin tikinti obyektlərinə ayrılmış vəsaitlərin səmərəli istifadəsinin qiymətləndirilməsi baxımından.

88.2. Ekspertizadan keçirilmiş tikinti layihələrinə konstruktiv və dayanıqlığa təsir edə biləcək dəyişikliklər edildikdə, həmin layihələr bu Məcəllənin 88.1.1 və 88.1.2-ci maddələrində nəzərdə tutulmuş mənada təkrar ekspertizadan keçirilir. https://e-qanun.az/framework/46958

***Ekspertizadan keçirilməsi tələb olunmayan tikinti layihələri***

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 89-cu maddəsinə əsasən aşağıdakı tikinti layihələri ekspertizadan keçirilmir:

89.1.1. insanların yaşaması və toplanması, habelə istehsalat fəaliyyətinin həyata keçirilməsi üçün nəzərdə tutulmayan birmərtəbəli, aşırımının uzunluğu ən çoxu 6 metr olan tikinti obyektlərinin layihələri;

89.1.2. sanitar-mühafizə zonalarının ayrılmasını tələb etməyən və ya mövcud sanitar-mühafizə zonalarından istifadə olunması şərtilə tikilməsi nəzərdə tutulan istehsalat təyinatlı, sahəsi ən çoxu 1000 kvadratmetr, hündürlüyü və aşırımının uzunluğu ən çoxu 6 metr olan birmərtəbəli tikinti obyektlərinin layihələri;

89.1.3. mövcud tikinti obyektlərinə və (və ya) onların hissələrinə həmin obyektlərin konstruktiv və digər təhlükəsizlik göstəricilərinə təsir etməyən və icazə verilmiş tikintinin parametrlərini keçməyən dəyişikliklərin edilməsi barədə tikinti layihələri;

89.1.4. ekspertizadan keçirilmiş, təkrar istifadə olunan və ya birtipli layihələr əsasında həmin layihələrdə nəzərdə tutulmuş şəraitə (qrunt, iqlim şəraiti, seysmik rayonlaşdırma və digər) uyğun zonalarda inşa ediləcək tikinti obyektlərinin layihələrinin 0 (sıfır) səviyyəsindən yuxarı hissəsi, habelə tikinti obyektlərinə onların konstruktiv və digər təhlükəsizlik göstəricilərinə təsir göstərməyən dəyişikliklərin edilməsi barədə layihələr;

89.1.5. Bu Məcəllənin 79-80-ci maddələrində nəzərdə tutulmuş tikinti obyektlərinin layihələri;

89.1.6. yerüstü mərtəbələrinin sayı ikidən, hər mərtəbəsinin hündürlüyü 4 metrdən, ümumi sahəsi 500 kvadratmetrdən, aşırımlarının uzunluğu 6 metrdən çox olmayan qeyri-yaşayış obyektlərinin tikinti layihələri;

89.1.7. insanların yaşaması və toplanması, habelə istehsalat fəaliyyətinin həyata keçirilməsi üçün nəzərdə tutulmayan yerüstü mərtəbələrinin sayı 2-dən, hər mərtəbəsinin hündürlüyü 3 metrdən, ümumi sahəsi 1400 kvadratmetrdən, tikinti sahəsi 1000 kvadratmetrdən və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan anbar binalarının layihələri.

89.2. Bu Məcəllənin 89.1.3 və 89.1.4-cü maddələrində nəzərdə tutulmuş layihələrlə bağlı şübhələr olduqda, müvafiq icra hakimiyyəti orqanı və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum şübhə doğuran halların aydınlaşdırılması barədə ekspertiza müəssisəsinə sorğu ilə müraciət edir. https://e-qanun.az/framework/46958

# Yaşıl İqtisadiyyat

***Maliyyə ili ərzində müəssisədə fırtınalar, daşqınlar, quraqlıqlar və ya sürüşmələr kimi ekstremal hava hadisələri nəticəsində fiziki aktivlərə ziyan dəyməsi zamanı sığorta ödənişləri***

Azərbaycan Respublikasında sığorta *bazarının* inkişafının, sığorta bazarının peşəkar iştirakçılarının, o cümlədən sığortaçıların, təkrarsığortaçıların, sığorta vasitəçilərinin fəaliyyətinin əsas istiqamətlərini və prinsiplərini, habelə sığorta sahəsində *tənzimləmə və nəzarətin* hüquqi və iqtisadi əsaslarını müəyyən edən "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/13983

***Müəssisədə karbon (CO2) emissiyalarına nəzarət məsələsi***

Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli qərarı ilə "Məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının müəyyən edilməsi üçün meyarlar" təsdiq olunmuşdur. https://e-qanun.az/framework/51211

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/3852)

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/47842)

"Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/3515)

"2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının 5-ci "Təmiz ətraf mühit və "Yaşıl artım" ölkəsi" Milli Prioriteti (https://e-qanun.az/framework/50013)

***Müəssisə tərəfindən emissiyaları, tullantıları və ya çirklənməni azaltmaq üçün enerjinin idarə edilməsi ilə bağlı tədbirlərin görülməsi***

Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir (https://e-qanun.az/framework/48129)

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/3852)

"2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının 5-ci "Təmiz ətraf mühit və "Yaşıl artım" ölkəsi" Milli Prioriteti (https://e-qanun.az/framework/50013)

# Maliyyə xidmətləri

### *Dövriyyə kapitalı*

Dövriyyə kapitalı, kapitalın əsas növlərindən biri olmaqla istehsalın təşkili üçün lazım olan kapital hesab olunur. Bu kapital istehsal prosesində tamamilə istehlak olunan və öz dəyərini istehsal edilən əmtəələrin üzərinə keçirən, habelə istehsal olunmuş məhsulların satışından sonra pul formasında sahibinə qayıdan hissədir. https://e-qanun.az/framework/46948

### *Əsas vəsaitlərin alınması*

Əsas vəsait anlayışı AR Vergi Məcəlləsi ilə tənzimlənir. Vergi Məcəlləsinə əsasən, "əsas vəsaitlər" istifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan çox olan, həmin Məcəllənin 114-cü maddəsinə uyğun olaraq amortizasiya edilməli olan maddi aktivlərdir. https://e-qanun.az/framework/46948

### *Bankda hesabların açılması*

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Banklar haqqında" Qanuna və Azərbaycan Respublikası Mərkəzi Bankının "Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası"na əsasən, müəssisə (i) cari, (ii) cari subhesab, (iii) əmanət və (iv) müxbir hesablar aça bilər. https://e-qanun.az/framework/46944, https://e-qanun.az/framework/5825, https://e-qanun.az/framework/49456

### *Overdraft imkanı*

"Overdraft facility" Mülki Məcəlləyə əsasən hesabın kreditləşdirilməsi kimi müəyyən edilir. Belə ki, bank hesabı müqaviləsinə müvafiq surətdə, pul vəsaitinin olmadığına baxmayaraq, bankın ödənişləri həyata keçirdiyi hallarda (hesabın kreditləşdirilməsi) bank bu cür ödənişi həyata keçirdiyi gündən müştəriyə müvafiq məbləğdə kredit vermiş sayılır. https://e-qanun.az/framework/46944

### *Kredit və kredit xətti*

"Banklar haqqında" Qanuna əsasən, **kredit** bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər və (və ya) müqavilədə göstərilən digər ödənişlər ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir. Həmin şərtlərlə pul vəsaitinin verilməsi haqqında götürülmüş hər hansı öhdəlik, qarantiya, zəmanət və s. verilmiş vəsaitin qaytarılmasını tələb etməklə bağlı digər hüquq da kredit anlayışına aiddir. https://e-qanun.az/framework/5825

**Kredit xətti** kredit müqaviləsinə uyğun olaraq tam və ya qismən istifadə edilə bilən, faiz dərəcəsi kredit xəttinin yalnız istifadə olunmuş hissəsinə hesablanan və yuxarı həddi müəyyənləşdirilmiş bank kreditidir. https://e-qanun.az/framework/37056

### *Maliyyə institutlarının növləri*

Maliyyə institutları anlayışı "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunda verilmişdir və kredit təşkilatları, həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan yerli və xarici sığortaçılar, təkrarsığortaçılar və sığorta vasitəçiləri, investisiya şirkətləri, investisiya fondları, bu fondların idarəçiləri, xarici investisiya fondlarının nümayəndəlikləri, mərkəzi depozitar, poçt rabitəsinin milli operatoru, lombardlar, maliyyə lizinqi xidmətləri göstərən şəxslər, ödəniş təşkilatları (müstəsna olaraq ödəniş əməliyyatının aparılması üçün vasitəçilik xidməti və (və ya) hesab üzrə məlumat xidməti göstərən ödəniş təşkilatları istisna olmaqla) və elektron pul təşkilatları, virtual aktiv xidməti təminatçıları və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxsləri ehtiva edir. https://e-qanun.az/framework/53369

Lakin "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanunda maliyyə institutları anlayışı deyil, nəzarət subyektləri anlayışı nəzərdə tutulmuşdur və nəzarət subyektləri kimi banklar, BOKT-lər, sığorta bazarının peşəkar iştirakçıları, investisiya

şirkətləri və qiymətli kağızlar bazarında digər lisenziyalaşdırılan şəxslər, investisiya fondları, investisiya fondunun idarəçiləri, ödəniş təşkilatları, elektron pul təşkilatları, ödəniş sistemləri operatorları, klirinq (prosessinq) fəaliyyətini həyata keçirən şəxslər, kredit büroları və maliyyə bazarlarını tənzimləyən qanunlarla Mərkəzi Bankın nəzarət etdiyi subyektlər kimi müəyyən edilən digər şəxslər nəzərdə tutulur. https://e-qanun.az/framework/5530

### *Girov predmetləri*

Girov və ipoteka hüququ, öhdəliyin icrasının təminatı üsulu olmaqla, girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur. İpoteka predmeti olan əşyalar, mülki dövriyyədən çıxarılmış əşyalar, habelə qanunla güzəşt olunması və ya girov qoyulması qadağan edilmiş tələblər və hüquqlar istisna olmaqla, istənilən əşyalar və tələblər girov predmeti ola bilər. https://e-qanun.az/framework/46944

Qanunvericiliyə əsasən, daşınar və daşınmaz əmlak üzərində hüquqları və yüklülüyü təsbit edən reyestrlər mövcuddur. Belə ki, daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı daşınmaz əmlakın dövlət reyestrində aparılır. https://e-qanun.az/framework/5456

Daşınar əmlaka yüklülüyün yaranması, yüklülüyə dəyişikliklər edilməsi, onun xitamı, habelə daşınar əmlak üzərində yüklülüyə etiraz edilməsi ilə bağlı qeydlərin aparılması üçün isə daşınar əmlakın yüklülüyünün dövlət reyestri (Reyestr) aparılır. Rəsmi reyestrlərdə qeydiyyata alınan daşınar əşyalar (avtomobil və s.) və dövlət qeydiyyatına alınmalı olan qiymətli kağızlar (səhm, istiqraz və s.) istisna olmaqla bütün daşınar əmlaklar Reyestrdə qeydiyyata alına bilər. https://e-qanun.az/framework/35586,
https://e-qanun.az/framework/12971

### *Şəxsi kreditlər (istehlak krediti)*

İstehlak krediti sahibkarlıq və ya peşə fəaliyyəti, habelə daşınmaz əmlakın əldə edilməsi və tikintisi ilə bağlı olmayan məqsədlər üçün fiziki şəxslərə verilən kreditdir. https://e-qanun.az/framework/56958

Həmçinin, avtomobil nəqliyyatı vasitəsinin əldə edilməsi məqsədi ilə verilən və təminat predmeti həmin avtomobil nəqliyyatı vasitəsi olan kredit də istehlak krediti sayılır. https://e-qanun.az/framework/50081

### *Müəssisələrdə maliyyə hesabatlarının auditi*

Mülki Məcəlləyə əsasən, məhdud məsuliyyətli cəmiyyət (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla) illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il müstəqil auditor cəlb etməlidir (kənar audit). Habelə bu Məcəllənin 99-cu maddəsində göstərilən sənədlərin dərci zamanı səhmdar cəmiyyəti illik maliyyə hesabatlarının yoxlanılması üçün müstəqil auditoru cəlb etməyə borcludur.
https://e-qanun.az/framework/46944

### *Nağdsız ödənişlərin həyata keçirilməsi*

Nağdsız hesablaşma dedikdə, aşağıdakılar nəzərdə tutulur: https://e-qanun.az/framework/34474

- bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri (mobil telefon aparatları, kompüter və digər avadanlıq) ilə həyata keçirilən hesablaşmalar;
- ödəniş terminalları ilə həyata keçirilən hesablaşmalar;
- birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar.

Bununla yanaşı, nağdsız hesablaşmalar aparılarkən ödəniş tapşırıqları ilə, akkreditiv üzrə hesablaşmalara, inkasso üzrə, çeklərlə, ödəniş kartları ilə, elektron şəklində hesablaşmalara, habelə qanunvericilikdə nəzərdə tutulmuş digər formalarda hesablaşmalara yol verilir. https://e-qanun.az/framework/46944

Eyni zamanda, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” qanuna əsasən ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların

aparılması, habelə vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün müvafiq POS-terminallar quraşdırılmalıdır. https://e-qanun.az/framework/9479

### *Nağdsız ödəniş alətləri*

Ödəniş aləti ödəniş xidməti istifadəçisi (i.e. ödəyici və (və ya) vəsait alan qismində ödəniş xidmətlərindən istifadə edən şəxs) tərəfindən ödəniş sərəncamının verilməsi məqsədilə istifadə olunan və ödəniş xidməti təchizatçısı (i.e. banklar, BOKT-lər, ödəniş və e-pul təşkilatları, poçt rabitəsinin milli operatoru və Mərkəzi Bank) ilə razılaşdırılmış hər hansı bir fərdiləşdirilmiş alət və (və ya) prosedurlar toplusudur. https://e-qanun.az/framework/54872

Nağdsız ödəniş alətlərinə ödəniş kartları (debit, kredit kartı), elektron pul, elektron pul kisəsini və s. aid etmək olar. https://e-qanun.az/framework/10406, https://e-qanun.az/framework/56659

### *Nağdsız ödənişlərin qəbul edilməsi müddətləri*

Ödəniş xidməti təchizatçısı ödəniş sərəncamını icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq icra etməlidir. Bununla yanaşı, ödəniş xidmətlərinin ödəniş terminalları vasitəsilə göstərildiyi hal istisna olmaqla, vəsait alanın xeyrinə ödəniş xidməti təchizatçısına daxil olan pul vəsaiti həmin əməliyyat günü vəsait alanın ödəniş hesabına mədaxil edilməli və (və ya) pul vəsaitinin istifadəsinə imkan yaradılmalıdır. Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaitinin hesaba mədaxil edilməsi müddəti ödəniş xidməti istifadəçisi ilə ödəniş xidməti təchizatçısı arasında bağlanılmış müqavilə ilə tənzimlənir.

https://e-qanun.az/framework/54872

Mülki Məcəlləyə əsasən, bank müştərinin hesabına daxil olmuş pul vəsaitini, qanunda ayrı qayda nəzərdə tutulmadıqda, həmin əməliyyat günündən gec olmayaraq hesaba salmalıdır. Həmçinin, bank müştərinin sərəncamı ilə müştərinin pul vəsaitini müvafiq ödəniş sərəncamının banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq verməli və ya hesabdan köçürməlidir, bu şərtlə ki, qanunla, qanuna uyğun qəbul edilmiş bank qaydaları ilə və ya bank hesabı müqaviləsi ilə ayrı müddətlər nəzərdə tutulmasın.

https://e-qanun.az/framework/46944

### *Ödənişin həyata keçirilməsi xərcləri*

"Banklar haqqında" Qanuna əsasən hər bir bank müştərilərlə bağladığı müqavilədə xidmət şərtlərini, o cümlədən faiz dərəcələrini, komisyon haqlarını və göstərilən bank xidmətləri üçün digər ödənişləri, habelə bank tərəfindən verilmiş kreditlərin ödənişi şərtlərini və qaydalarını müəyyən etməkdə sərbəstdir. https://e-qanun.az/framework/5825

# Vergi qanunvericiliyi və inzibatçılığı

## *Vergi nəzarəti və onun formaları*

Vergi nəzarəti - büdcəyə vergilərin düzgün hesablanmasını, vaxtında və tam məbləğdə köçürülməsini, vergi qanunvericiliyinin riayət edilməsini təmin edən qanunla nəzərdə tutulmuş üsul və tədbirlərin məcmusudur.

Vergi orqanları vergi nəzarətini vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunu aparmaqla, uçot və hesabat məlumatlarını yoxlamaqla, əlaqəli məlumatları təhlil etməklə, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, gəlir əldə etmək üçün istifadə olunan binalara (ərazilərə) baxış keçirməklə, yaxud həmin obyektlərin fəaliyyəti barədə məlumat toplamaqla və sair formalarda həyata keçirirlər.

Vergi yoxlaması vergi nəzarətinin əsas formasıdır. Vergi qanunvericiliyi ilə vergi yoxlamasının iki növü müəyyən edilmişdir - kameral və səyyar vergi yoxlamaları. Bununla yanaşı, *vergi nəzarəti forması olaraq operativ vergi nəzarəti (OVN) tədbirləri də həyata keçirilir.*

**Kameral vergi yoxlaması** vergi orqanı tərəfindən vergi ödəyicisinin **fəaliyyət göstərdiyi məkana getmədən** vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan sənədlər və mənbəyi məlum olan məlumatlar əsasında aparılır. Kameral yoxlamalar zamanı vergi orqanı vergi ödəyicisi ilə canlı təmas etmir, bütün yoxlama mövcud olan və əldə edilə bilən məlumatların təhlili, mühasibat və vergi hesabatlarının müqayisəsi, göstəricilərin dəyişmə dinamikası və s. əsasında aparılır.

**Səyyar vergi yoxlaması** vergi orqanı tərəfindən vergi ödəyicisinin **fəaliyyət göstərdiyi məkanda** keçirilən vergi yoxlaması növüdür. Səyyar vergi yoxlaması növbəti və növbədənkənar formada ola bilir. 2023-cü ildə başa çatan səyyar vergi yoxlamalarının sayı 537 təşkil edib. Vergi ödəyicilərini əhatə baxımından bu çox aşağı göstəricidir və aktiv vergi ödəyicilərinin cəmi **1 faizindən də aşağı hissəni** əhatə edib.

Səyyar vergi yoxlamaları zamanı vergi orqanı ilə vergi ödəyicilərinin görüşü **yalnız bir dəfə** hazırlanmış aktın müzakirəsi zamanı keçirilir. Vergi ödəyicisi ilə təmaslar səyyar yoxlama ilə bağlı hazırlanmış aktın müzakirəsi zamanı başlanır, şirkətlərin yüksək rəhbərliyinin iştirakı adətən yoxlamanın son dövrünə düşən müddəti əhatə edir. Vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə və ya onun səlahiyyətli nümayəndəsinə verilmə tarixini təsdiq edən üsulla aktın tərtib edildiyi tarixdən sonra 5 gündən gec olmayaraq verilir və ya göndərilir. Səyyar vergi yoxlamaları yalnız vergilərin ödənilməsindən yayınma hallarının olmasına dəqiq və əsaslı əlamətlər olduğu halda keçirildiyindən, onlar nəticəlidir və dövlət büdcəsinə əlavə vergi ödəmələrinin təmin olunmasına gətirir. Vergi əməkdaşlarının fəaliyyəti "Dövlət vergi orqanları əməkdaşlarının etik davranış" Qaydaları (https://www.taxes.gov.az/az/page/etik-davranis-qaydalari) ilə tənzimlənir.

*Operativ vergi nəzarəti vergi nəzarəti formaları içərisində çevik və effektiv nəzarət formasıdır.* Operativ vergi nəzarəti sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin, anbar, ticarət və bu qəbildən olan digər binalarında, nəqliyyat vasitələrində həyata keçirilən vergi nəzarəti formasıdır.

*Operativ vergi nəzarəti* vergi orqanının əsaslandırılmış qərarı əsasında həyata keçirilir. Nəzarət tədbiri vergi ödəyicisinə əvvəlcədən xəbərdarlıq edilmədən başlanır və vergi ödəyicilərinin faktiki iş vaxtı ərizndə həyata keçirilir. *Bu nəzarətin həyata keçirilməsi qaydalarını, nəzarətlə əhatə olunan məsələləri Vergi Məcəlləsinin 50-ci maddəsi müəyyən edir. 2023-cü ilin nəticələrinə görə, aktiv vergi ödəyicilərinin yalnız 1 faizi operativ vergi nəzarəti ilə əhatə olunub.*

## *Vergi qanunvericiliyinə əməletmə üçün sərf olunan vaxt*

Maliyyə ilində müəssisə üçün bütün vergi hesabatlarının hazırlanması, təqdim edilməsi və ödənilməsi üçün tələb olunan vaxt önəmli xarakter daşıyır. Qeyd ediməlidir ki, 2023-cü

ildə mənfəət, ƏDV, sosial vergi və tutumlar üzrə bəyannamələrin təqdim edilməsi və ödənilməsi üçün tələb olunan ümumi illik vaxt göstəricisi 69,84 saat müəyyən edilib. Bütövlükdə bir ay ərzində orta müdət 5,82 saat təşkil edir.

### *Vergi ödəmələrinin rəqəmsallaşdırılması*

Ölkəmizdə vergi bəyannamələrinin göndərilməsi və vergilərin ödənilməsi prosesi tamamilə elektronlaşdırılıb. Hər bir vergi ödəyicisi e-taxes.gov.az portalına daxil olaraq istənilən bəyannaməni elektron qaydada təqdim edə bilir. Azərbaycanda bəyannamələrin elektron göndərilməsi göstəricisi yüksəkdir. 2023-cü il ərzində bütün bəyannamələrin 96,89%-i elektron şəkildə təqdim olunub.

Maliyyə ilində müəssisələr tərəfindən vergi öhdəlikləri elektron şəkildə ödənib. Azərbaycan Respublikası Prezidentinin 16 dekabr 2016-ci il tarixli 461-VQ nömrəli "Nağdsız hesablaşmalar haqqında" qanununun (https://e-qanun.az/framework/34474) tələblərinə əsasən vergilərin ödənilməsi yalnız nağdsız qaydada həyata keçirilməlidir. Bu səbəbdən ödənişlər ancaq elektron qaydada həyata keçirilir. Vergilərin ödənilməsi üçün lazımi məlumatlarla bu linklərdən tanış olmaq mümkündür.

https://www.youtube.com/embed/8bPtqUOKu2E
https://www.taxes.gov.az/az/page/vergileri-nece-odeyek

### *ƏDV-nin qaytarılması prosesi*

Vergi Məcəlləsinin 179.1-ci maddəsinə əsasən hesabat dövründə vergi tutulan dövriyyəsinin azı 50 faizi sıfır dərəcəsi ilə vergiyə cəlb olunan vergi ödəyicisinə, hesabat dövründə əvəzləşdirilən vergi məbləğinin hesablanmış vergidən artıq olan hissəsi onun vergi və ya gömrük orqanlarına ərizəsini verdiyi vaxtdan 20 gün ərzində qaytarılır.

Vergi Məcəlləsinin 179.2-ci maddəsinə əsasən ƏDV ödəyiciləri üçün – əvəzləşdirilən vergi məbləğinin hesabat dövrü ərzində hesablanmış vergi məbləğindən artıq olan hissəsi vergi ödəyicisinin vergi və gömrük orqanlarına elektron formada ərizəsini verdiyi vaxtdan 4 aydan gec olmayaraq qaytarılır. VM-nin 179.2-ci maddəsinə əsasən 2023-cü ildə ərizəni təqdim etdiyi andan ƏDV-nin geri qaytarılmasına qədər olan orta müddət 7.4 həftə müəyyən edilib.

Müəssisənin ƏDV-nin qaytarılması üçün müraciət etməsinə ehtiyac yoxdur. İxrac fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin artıq ödəmə məbləğləri barədə ərizələr vergi orqanı tərəfindən hazırlanaraq hər ay təsdiqlənib göndərilməsi üçün vergi ödəyicilərinə təqdim edilir. Bu zaman vergi ödəyicisinə artıq ödənilmiş məbləğlərin qaytarılması çevik şəkildə və heç bir nəzarət tədbirlərinə məruz qalmadan təmin edilir.

Digər fəaliyyət istiqamətləri üzrə Vergi Məcəlləsinin 87-ci maddəsinə əsasən artıq ödənilmiş məbləğlər digər vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələr üzrə borcların və vergi ödəyicisinin razılığı ilə sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edildiyindən qaytarılmır.

Son 3 ildə (01.10.2021-01.10.2024) artıq ödəmənin geri qaytarılması ilə bağlı daxil olan müraicətlərin sayı 4.251 təşkil edib. Müraciətlərin icra vəziyyəti barədə statistik məlumatlar DVX-nin rəsmi internet saytında yerləşdirilib  Həmin məlumatla aşağıdakı linkə keçid etməklə tanış olmaq mümkündür:

https://www.taxes.gov.az/az/page/muracietler-barede-melumat

# Əmək bazarı

### *Xəbərdarlıq müddəti*

**Əmək Məcəlləsi 77-ci maddəsinin 1-ci hissəsinə** əsasən **işçilərin sayı azaldıqda və ya ştatları ixtisar olunduqda** bu Məcəllənin 70-ci maddəsinin “b” bəndi ilə işəgötürən tərəfindən əmək müqaviləsi ləğv edilməzdən əvvəl işçi işəgötürən tərəfindən həmin işəgötürənlə bağlanmış əmək müqaviləsinə (əmək müqavilələrinə) uyğun olaraq müəyyən olunan əmək stajından asılı olaraq aşağıdakı müddətlərdə **rəsmi xəbərdar** edilməlidir:

- *bir ilədək əmək stajı olduqda – azı iki təqvim həftəsi;*
- *bir ildən beş ilədək əmək stajı olduqda – azı dörd təqvim həftəsi;*
- *beş ildən on ilədək əmək stajı olduqda – azı altı təqvim həftəsi;*
- *on ildən çox əmək stajı olduqda – azı doqquz təqvim həftəsi.*

*https://e-qanun.az/framework/46943*

### *İşdənçıxarma müavinəti*

**Əmək Məcəlləsi 77-ci maddəsinin 2-ci hissəsinə** əsasən əmək müqaviləsi bu Məcəllənin 70-ci maddəsinin “a” və “b” bəndləri ilə ləğv edilərkən işçiyə işəgötürən tərəfindən həmin işəgötürənlə bağlanmış əmək müqaviləsinə (əmək müqavilələrinə) uyğun olaraq müəyyən olunan əmək stajından asılı olaraq aşağıdakı məbləğlərdə **işdənçıxarma müavinəti** ödənilir (*https://e-qanun.az/framework/46943*)

- *bir ilədək əmək stajı olduqda – orta aylıq əməkhaqqı;*
- *bir ildən beş ilədək əmək stajı olduqda – orta aylıq əməkhaqqının azı 1,4 misli;*
- *beş ildən on ilədək əmək stajı olduqda – orta aylıq əməkhaqqının azı 1,7 misli;*
- *on ildən çox əmək stajı olduqda – orta aylıq əməkhaqqının azı iki misli miqdarında.*

### *Əmək hüquqlarının müdafiəsi*

**Əmək Məcəlləsinin 18-ci maddəsinə** əsasən özlərinin hüquqlarını, qanuni mənafelərini müdafiə etmək məqsədi ilə işçinin, işəgötürənin, əmək kollektivinin, həmkarlar ittifaqları təşkilatının **fərdi və ya kollektiv əmək mübahisəsi aparmaq hüququ vardır.** https://e-qanun.az/framework/46943

**Əmək Məcəlləsinin 296-cı maddəsinə** əsasən **işəgötürən bu Məcəllə ilə müəyyən edilmiş hallarda işçiyə qarşı iddia ərizəsi ilə** məhkəməyə hüquqlarının və qanuni mənafelərinin pozulduğu gündən 1 təqvim ayı müddətində, ona maddi ziyan vurulması məsələləri ilə əlaqədar isə ziyanın vurulmasını aşkar etdiyi gündən 1 il müddətində müraciət edə bilər. https://e-qanun.az/framework/46943

**Əmək Məcəlləsinin 74-cü maddəsinə** əsasən **əgər qanunsuz və ya əsassız işdən çıxarılmış işçi işinə bərpa olunması üçün** məhkəməyə iddia ərizəsi ilə müraciət edərsə və məhkəmə tərəfindən iddiası təmin olunaraq işinə (vəzifəsinə) bərpa edilməsi haqqında qətnamə (qərar) qəbul edilərsə, onda işəgötürən tərəfindən məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi (qərarı) dərhal icra edilərək o, əvvəlki vəzifəsinə və ya razılığı ilə başqa vəzifəyə (işə) bərpa olunmalıdır. https://e-qanun.az/framework/46943

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması” haqqında AR Qanununa əsasən sahibkarlıq sahəsində aparılan yoxlamalar **2025-ci il yanvarın 1-dək** dayandırılmışdır. Yalnız işçilərin **fərdi və kollektiv müraciəti əsasında** DƏMX tərəfindən iş yerlərində müvafiq yoxlamalar aparılır. https://e-qanun.az/framework/31093

Eyni zamanda, əmək mübahisələrinin həlli məqsədilə ölkədə **Mediasiya Mərkəzi** fəaliyyət göstərir. https://dost.gov.az/news/594

**Əmək məcəlləsinin 217-ci maddəsinə** əsasən istehsalatda baş verən bədbəxt hadisələrin ağırlıq dərəcəsindən asılı olmayaraq, hadisənin araşdırılması üçün dərhal həmin hadisə baş verən günü əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti həyata keçirən orqana **(Dövlət Əmək Müfəttişliyi Xidməti)** məlumat verilir. https://e-qanun.az/framework/46943